# Heydər Əliyev müstəqil Azərbaycanın memarı və qurucusudur

## Ulu Öndərin həyatının zəngin, eyni zamanda, çox şərəfli illəri kimi tarixə yazılan Naxçıvandakı fəaliyyəti Azərbaycanın müstəqilliyinə gedən yolda əsas rol oynamışdır

**Tarixin zaman adlı hakiminin ədalətli hökmü insanlar kimi ölkələrin, dövlətlərin taleyində də söz sahibidir. 1969-cu ildə ilk dəfə siyasi hakimiyyətə gəlməklə Azərbaycanı şöhrətləndirən, 22 iyul 1990-cı ildə Moskvadan vətəni Azərbaycana dönən Heydər Əliyev xalqı arxasınca apararaq müstəqilliyimizin əbədi qarantı olduğunu misilsiz xidmətləri ilə təsdiqlədi.**



Dahi şəxsiyyətin həyatının bəlkə də ən yaddaqalan dövrlərinə təsadüf edən hadisələri xatırladan Prezident İlham Əliyev Ulu Öndərin anadan olmasının 92-ci ildönümü mərasimində ötənlərə bir daha nəzər saldı: "Heydər Əliyev özünü vətənpərvər, cəsarətli insan kimi bir daha 1990-cı ilin yanvar ayında göstərmişdir. O günlər mənim yaxşı xatirimdədir. Azərbaycan xalqına qarşı böyük cinayət törədilmişdi, günahsız insanlar qətlə yetirilmişdi. Sovet ordusu Bakıya müdaxilə edərək kütləvi qırğın törətmişdi. Yüzlərlə insan həlak olmuş, yaralanmış, itkin düşmüşdü. Bu, böyük cinayət idi. Ancaq əfsuslar olsun ki, Azərbaycanın ovaxtkı rəhbərliyi bu barədə öz etiraz səsini qaldırmamışdı. Yenə də xalqın yeganə ümid yeri Heydər Əliyev idi. O vaxt Heydər Əliyev pensiyada idi, fəal işlərlə məşğul olmurdu. O vaxt ona qarşı həm sovet rəhbərliyi, həm də Azərbaycanda vəzifədə olanlar tərəfindən çirkin kampaniya aparılırdı. O vaxt da "beşinci kalon" var idi və onlar anonim məktublar, donoslar yazaraq onun əleyhinə iş aparırdılar. Bu gün donoslar başqa yerlərə ünvanlanır, o vaxt Moskvaya yazılırdı. 1990-cı il yanvar ayının 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək öz etiraz səsini bütün dünyaya çatdırdı. Fəxr edirəm və çox xoşbəxtəm ki, mən də o gün onunla bərabər orada idim... O vaxt Sovet İttifaqının dağılmasına hələ iki il vaxt var idi və heç kim təsəvvür edə bilməzdi ki, Sovet İttifaqı dağıla bilər. Yəni, bu addım, bu vətənpərvərlik nümunəsi bir daha göstərdi ki, Heydər Əliyev öz xalqına nə qədər bağlıdır və o, nə qədər cəsarətli, ədalətli şəxsiyyətdir. Təbii olaraq, təcrübəli siyasi xadim kimi o, dərk edirdi ki, bundan sonra ona qarşı böyük təzyiqlər başlayacaq, onun həyatına təhlükə ola bilər, belə də oldu. Əgər o, Moskvada bir qədər çox qalsaydı həbs olunacaqdı. O, Azərbaycana üz tutdu, Bakıya gəldi. Ancaq Bakıdakı o vaxtkı rəhbərlik imkan vermədi ki, o, öz doğma vətənində yaşasın və məcbur olub doğulduğu yerə - Naxçıvana üz tutdu. Naxçıvanda insanlar onu çox böyük coşqu ilə qarşılamışdılar."

... 22 iyul 1990-cı il salnaməmizə yazılan ən şanslı tarixlərdən biridir. Ata ocağına qayıdandan sonra həmyerliləri ilə görüşlərində, Azadlıq meydanında təşkil olunan 100 mindən artıq Heydərsevərin iştirak etdiyi mitinqdə Azərbaycanın ayrılmaz bir parçası və Şərqə açılan qapısı olan Naxçıvanı qorumağın suverenliyimizin təminatı üçün başlıca şərt olduğunu uzaqgörən siyasəti ilə dərk edən Ulu Öndər xalqının müstəqillik arzularının gerçəkləşəcəyinə inanırdı. Tarix göstərdi ki, uzaqgörən, düşünülmüş siyasəti ilə heç vaxt yanılmadığını təsdiqləyən Ulu Öndər Naxçıvanda yaşadığı qısa müddətdə Azərbaycanın müstəqilliyinin əbədiliyi naminə tarixi xidmətlərinə əlavələr etdi.

Doğma yurdunda el ağsaqqalı, sonra deputat, nəhayət Naxçıvan MR Ali Məclisinin Sədri kimi ən vacib problemlərin əsl mahiyyətini müdrikcəsinə dərk edir, çıxış yollarını müəyyənləşdirir, alternativ yollar axtarırdı.

Onun həyata keçirdiyi islahatlar haqqında geniş danışmağa ehtiyac olmasa da o illərdə baş verən hadisələrin xronikası barədə qısa məlumat belə müdrik insanın xidmətləri barədə aydın təsəvvür yaradır.

17 noyabr 1990-cı ildə keçirilən iclasa müdrik şəxsiyyət, ağsaqqal deputat kimi sədrlik edən Heydər Əliyev bir müddət sonra söylədiyi "Müstəqillik qədər çətin yol yoxdur. Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir" sözlərinin real həyatda həlli üçün imkan yaradan məsələlər barədə düşüncələrini gerçəkləşdirdi. Həmin sessiyada "Naxçıvan MSSR"in adının dəyişdirilməsi, dövlət atributları sayılan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının, himn və gerbinin bərpası barədə qərar qəbul olundu.

Ulu Öndər 1990-cı ildə Bakıda törədilmiş Yanvar hadisələrinə həsr olunmuş, Azərbaycan SSR Ali Sovetinin yarımçıq dayandırılmış sessiyasını qətiyyətlə pisləyərək Naxçıvan MR Ali Məclisinin sessiyasında bu məsələnin müzakirəsini aktuallaşdırmaqla xalqımıza qarşı törədilən təcavüzə siyasi qiymət verdi. Fəaliyyətinin Naxçıvan dövrünü əhatə edən illərdə Ümummilli Liderin ən böyük xidmətlərindən biri diaspor fəaliyyətinin təməlini qoyan 31 dekabr-Dünya Azərbaycanlılarının milli həmrəylik və birliyi barədə qərarın qəbulu idi.

SSRİ-nin cənub sərhədlərini qoruyan sovet ordusunun hərbi arsenalı, silah-sursatı muxtar respublikada qalmaqla bütün ordu hissələrinin Naxçıvandan çıxarılmasına nail oldu. Məhz o illərdə yaradılan Naxçıvanın İnkişafı və Müdafiəsi Fonduna yığılan vəsait milli ordunun möhkəmlənməsinə sərf olundu. Respublikada ilk sərhəd dəstəsi də Ulu Öndərin qətiyyəti ilə yaradıldı.

Naxçıvanda olarkən bütün Azərbaycan üçün gördüyü böyük işlərdən biri də respublikanın sərhədlərinin, Naxçıvanın ermənilər tərəfindən işğalının qarşısının alınmasına yönəldilmiş Qars müqaviləsinin təzələnməsi idi. Blokadada qalan naxçıvanlıların çətin vəziyyətdən çıxması üçün qonşu İran və Türkiyə ilə əməkdaşlıq gücləndi. Böyük şəxsiyyət Heydər Əliyevin nüfuzu bu sahədə də özünü doğrultdu. Naxçıvana hər iki qonşu dövlətdən ərzaq, sənaye malları, ən başlıcası isə enerji verildi. Türkiyə ilə əlaqələrin möhkəmləndirilməsi üçün "Ümid körpüsü" salındı. Paytaxt Bakı ilə yeganə nəqliyyat yolunun intensiv fəaliyyəti üçün geniş imkanlara malik Naxçıvan hava limanı, Bakıda isə muxtar respublikanın nümayəndəliyi açıldı.

Bu gün geniş yayılan və ÜDM-də 85 faizdən artıq payı olan özəl bölmənin yaradılması üçün ilk addımlar da o illərdə atıldı. Ulu Öndər "Naxçıvanda zərərlə işləyən kolxoz və sovxozların ləğv edilməsi və onların əsasında şəxsi təsərrüfatların yaradılması", "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi" haqqında qərarlar qəbul etməklə sahibkarlıq üçün geniş imkanlar yaratdı. Ən başlıcası isə Azərbaycanın ictimai-siyasi həyatında aparıcı rol oynayan, ölkənin gələcəyinə böyük ümidlər vəd edən, bu gün üzvlərinin sayı 650 mini ötən Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Təsis olunduğu gündən partiyanın ətrafına yüz minlərlə insan toplandı.

1993-cü ildə parçalanmaqda olan Azərbaycanı daxili qarşıdurma və xarici dövlətlərin məkrli müdaxilələrindən qorumaq üçün xalqın təkidli tələbi ilə Bakıya dəvət olunan ümummilli lider Heydər Əliyev Azərbaycan üçün daha mühüm xidmətlər göstərdi. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Heydər Əliyevin Naxçıvandan Bakıya, böyük siyasətə qayıdışı Ulu Öndərin şərəfli xilaskarlıq missiyasının başlanğıcı idi.

1993-cü ildə tarixi QAYIDIŞI ilə insanları bürüyən stressdən, xaosdan, ölkəni isə parçalanmaq təhlükəsindən xilas edən Heydər Əliyev bir daha müstəqilliyin qarantı olduğunu sübut etdi. 1992-ci ildə, Naxçıvanda olarkən Ali Məclisin Sədri kimi anti-milli qüvvələrin təhdidlərinə xalqla birliyi sayəsində qalib gələn Heydər Əliyev 1994-1995-ci illərin acı xatirələri kimi yaddaşlarda iz salan dövlət çevrilişlərinə cəhdləri də mətinliklə, qətiyyəti sayəsində aradan qaldırdı. Daxili və xarici düşmənlərin birgə planlaşdırdıqları bu cinayətlərə müdrikliyi ilə qalib gələn Ulu Öndər bir daha xilaskarlıq missiyasını yerinə yetirdi.

Ermənistan silahlı qüvvələrinin və ölkəmizin müstəqilliyini istəməyən dairələrin istəklərinin qarşısını uzaqgörən siyasəti ilə alan, o dövrdə ölkədə siyasi sabitliyi təmin etməklə iqtisadi inkişaf üçün imkan və şərait yaradan ümummilli lider Heydər Əliyev atəşkəsə nail olmaqla ordu quruculuğu istiqamətində önəmli islahatlar apardı.

Ulu Öndərin Azərbaycanın iqtisadi inkişafı və müstəqilliyinin əbədiliyi üçün başlıca şərt olan və müdrikcəsinə hazırladığı neft strategiyası dünənimizin, bu günümüzün deyil, gələcəyimizin də qarantıdır. Dahi lider "Əsrin müqaviləsi" kimi qlobal enerji layihəsini imzalamaqla bölgədə sülhün, sabitliyin təminatına, xalqlararası əməkdaşlığın genişləndirilməsinə nail oldu. Üç dəniz əfsanəsinin gerçəkliyinə inanmayan, Xəzər neftinin dünya enerji bazarına nəqlini utopiya hesab edənlərə bir daha liderlik, dahilik dərsi verərək Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərini reallaşdırmaqla Azərbaycanın dünya birliyində yerini müəyyənləşdirdi. Dünya Azərbaycanlılarının qurultayını keçirməklə soydaşlarımızın birliyini, təşkilatlanmasını təmin etdi, diplomatiyamızın uğurlarını artırdı.

Dahiliyin qanunauyğunluqlarına liderlik fəaliyyətində əməl edən Ulu Öndər layiqli davamçı yetişdirməklə də müdrikliyini təsdiqlədi. 2003-cü ildə keçirilən prezident seçkiləri ərəfəsində xalqa ünvanlanmış tarixi müraciəti ilə bir daha Azərbaycanın gələcəyini etibarlı əllərə tapşırdı. Özü qədər inandığı cənab İlham Əliyev kimi səriştəli, iradəli dövlət başçısını Azərbaycan xalqına bəxş etdi.

Hazırda dünya birliyində Azərbaycan islahatçı, qüdrətli dövlət kimi tanınırsa, bu nailiyyət Heydər Əliyev məktəbinin layiqli davamçısı Prezident İlham Əliyevin bu irsə sadiqliyinin nəticəsidir. Əsası Ulu Öndər tərəfindən qoyulan və Prezident İlham Əliyevin qətiyyətlə davam etdirdiyi neft strategiyasının uğurlu həlli nəticəsində Azərbaycan Avropa İttifaqı dövlətlərinin etibarlı enerji təminatçısı kimi tanınır.

Azərbaycan BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi bu qurumun sessiyasına sədrlik etməsi, dünyada sülhün, sabitliyin təminatı üçün ədalət prinsipinə sadiqliyi Heydər Əliyev siyasi məktəbinin uğurla davam etdirilməsinin nümunəsidir. Azərbaycan AŞPA, ATƏT, İƏT, hərbi blok olan NATO kimi beynəlxalq təşkilatlarla əməkdaşlığı düşünülmüş siyasətin, özünü doğrultmuş siyasi məktəbin təcrübədə özünü təsdiqləmiş qələbəsidir. "Eurovision-2012" mahnı müsabiqəsində, I Avropa Oyunlarında iştirak edən qonaqları heyran qoyan Azərbaycan Ulu Öndərin arzularına uyğun olaraq dünyaya günəş kimi doğdu. Möhtəşəmliyi ilə dillərdə dolaşan ölkəmizin siyasi, iqtisadi qüdrəti dünya birliyində bir daha təsdiqləndi.

Siyasi sabitliyi, iqtisadi qüdrəti, əhalisinin sosial müdafiəsinin üstünlüyü ilə fərqlənən, MDB dövlətləri arasında seçilən Azərbaycanın daxili və xarici siyasəti də dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən dəstəklənir, müdafiə olunur. Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar müzakirələrdə Azərbaycanın sülh siyasətini, haqlı mövqeyini dəstəkləyənlərin sayının artması ölkəmizə inamdan xəbər verir. Sadalanan bu uğurlar, Azərbaycanda dinamik sürətlə davam etdirilən inkişaf Heydər Əliyev siyasətinin təntənəsidir. Müdriklər sanki Ulu Öndər haqqında deyiblər ki, insanların ən yaxşısı xalqa daha çox fayda verən, ömür səhifəsinə gözəl əməllərdən başqa heç nə yazmayanlardır. Ulu Öndər Heydər Əliyev bu adı müdrikliyi, zəkası, xalqına, Vətəninə bağlılığı ilə qazanıb.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***